yeni_yol@mail.ru / İCTİMAİ QƏZET / იენი იოლი საზოგადოებრივი გაზეთი / qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur









2 HƏR ŞEYİ HAMIYA ÖYRƏTMƏK İSTƏYƏNLƏRƏ

3 SURİYADA ƏMƏLİYYAT

4 TƏHLÜKƏDƏ OLAN GƏNCLİYİMİZ

6 HEÇ VAXT GEC DEYİL

HAQQIN SÖZÜ - SÖZÜN HAQQI

# Yeni YOL

15 SENTYABR 2018-Cİ İL

№014 (73)

## PREZİDENTLİYƏ NAMİZƏDLƏRİN YEKUN SİYAHISI OKTYABRIN 1-İ MƏLUM OLACAQ




Kimin hansı nömrə ilə prezident seçkilərində iştirak edəcəyi məsələsi Mərkəzi Seçki Komissiyasında (MSK) müzakirə olunub. MSK-da prezidentliyə namizədlik istəyi olanların qeydiyyatının son müddəti 8 sentyabrda başa çatıb.

Rəsmi məlumata görə, MSK-da prezidentliyə namizəd olmaq istəyən 46 nəfər qeydiyyatdan keçib. Onlardan 19-u siyasi subyekt və 27-si təşəbbüs qrupu tərəfindən olan namizədlərdir.

28 sentyabr tarixindən artıq prezidentliyə namizədlər MSK sədrinin sərəncamı ilə qeydiyyatdan keçəcəklər.

Qeydiyyatdan sonra üç gün ərzində, yəni 1 oktyabrdan prezidentliyə namizəd olanlara MSK-nın sədri müvafiq təsdiqləyici sənəd verir və namizəd artıq rəsmi qeydiyyatdan keçmiş hesab olunur. Artıq 4 oktyabrda isə MSK öz rəsmi səhifəsində namizədin ad, soyad, yaşayış yeri və vəzifəsini qeyd etməklə Gürcüstan prezidentiyinə namizədlik qeydiyyatını yayımlayır.

Xatırladaq ki, Gürcüstanda prezident seçkiləri cari ilin 28 oktyabrında keçiriləcək.

## GÜRCÜSTAN HÖKUMƏTİ MARİXUANA İSTEHSALINA BAŞLAMAĞI PLANLAŞDIRIR



Gürcüstan hökuməti marixuana istehsalı və ixracına icazə verəcək qanunlayihə hazırlayıb. Qanunlayihə marixuanadan hazırlanmış medikamentlərin ixracını nəzərdə tutur. Bu haqda Səhiyyə Komitəsinin sədri Akaki Zoidze məlumat verib.

Akaki Zoidzenin izahatına görə, qeyd olunan təşəbbüsü idarəçi komanda 10 sentyabrda müzakirə edib.

"Tibbi məqsədlə ixracın lisenziyası haqqında müzakirə oldu, amma qanunlayihə olmadan mən təsdiq edə bilmərəm", - deyə Akaki Zoidze bildirib.

O qeyd edib ki, təşəbbüs marixuanadan istifadəni məhdudlaşdıran qanunlayihə ilə birgə hökumət iclasına təqdim olunacaq.

"Mən, ümumiyyətlə, həmişə tibbi preparatların istehsalının tərəfdarı olmuşam. Bu, morfin, ağrı kəsici və ya antidepressant olacaq. Bunda heç bir problem görmürəm. Bir daha təkrar edirəm ki, burada ixracdan söhbət gedir. Bu, ölkə üçün böyük gəlir mənbəyi ola bilər. Amma yalnız tibbi və kosmetik məqsədlə marixuanadan hazırlanacaq məhsulun ixracından söhbət gedir", - qeyd edib Akaki Zoidze.

Deputat izah edir ki, DİN tərəfindən hazırlanmış qanunvericilik təşəbbüsündə iki istiqamətdə, eləcə də məhdudiyyət və ciddi tənzimləmədən də söhbət getməlidir.

"Biz bunu dəstəkləmirik, hər halda mən şəxsən dəstəkləmirəm, qalanı Parlamentin qərarı olacaq. Amma ixracın tibbi məqsədlə olmasını mən də şəxsən dəstəkləyərəm. Geridə qalanına isə qanunlayihə hazır olan zaman hökumət və Parlament qərar verəcək", - deyə Akaki Zoidze bildirib.

DİN-dən təsdiqləyirlər ki, ixraca çıxarılacaq tibbi və kosmetik məqsədlə marixuananın becərilmə və istehsalı məsələsini müzakirə edəcəklər.

"Hər hansı halda ölkənin daxilində marixuananın istifadəyə verilməsi Cinayət Məcəlləsi ilə cəzalandırılacaq", - DİN-dən bildiriblər.

## MAMUKA BAXTADZE: AZƏRBAYCANDA MÜZAKİRƏ OLUNMUŞ BİRGƏ LAYİHƏLƏR İKİ ÖLKƏ ARASINDAKI İQTİSADİ MÜNASİBƏTLƏRƏ YENİ İMPULS VERƏCƏK



"Biz Azərbaycanda birgə vacib layihələri müzakirə etdik və onlar iki ölkə arasındakı iqtisadi münasibətlərə yeni impuls verəcək". Bu haqda Gürcüstanın baş naziri Mamuka Baxtadze brifinqdə bildirib.

Hökumət rəhbəri Gürcüstan heyətinin Azərbaycana səfəri haqqında danışıb və qeyd edib ki, görüşdə çox istiqamətlərdə əlaqələrin dərinləşdirilməsindən söhbət açılıb.

"Azərbaycan Gürcüstanın strateji tərəfdaşıdır. Görüş çox nəticəli oldu. Biz birgə layihələri müzakirə etdik. Onlar Gürcüstan və Azərbaycan arasındakı iqtisadi münasibətlərə yeni impuls verəcək. Xatırladım ki, bizim aramızda azad ticarət rejimi mövcuddur, ancaq onda bəzi səhvlər var. Bizim mövqeyimiz budur ki, Azərbaycanla mövcud olan ticari rejim çərçivəsini genişləndirək və ona xidmət sahəsi əlavə olunsun. Hər iki tərəfin istəyi var ki, biz növbəti iki il ərzində aramızda ticarəti genişləndirək. Bu il olan bir milyardlıq rəqəmi yaxın iki il ərzində ən azı 50-60 faiz artıraq. Elə etməliyik ki, qonşu ölkələrlə daha çox ticari əlaqələrimiz olsun. Həmçinin əlaqələrimizin mədəni və humanitar kimi başqa spektrlərini, təhsil sahəsində olan əlaqələri də müzakirə etdik", - deyə M. Baxtadze bildirib.

Qeyd edək ki, Gürcüstanın baş naziri Mamuka Baxtadze avqustun 30-u Azərbaycanda rəsmi səfərdə olub.

## GÜRCÜSTANDA ÇADRA, NİQAB VƏ BURKA QADAĞAN OLUNA BİLƏR

Gürcüstanın ictimai yerlərində çadra, niqab və burka ilə gəzmək inzibati qayda ilə cəzalandırıla bilər. İnzibati Xətalar Məcəlləsində müvafiq dəyişikliklərin həyata keçirilməsi təşəbbüsü ilə "Patriotlar Alyansı" fraksiyasının üzvü Emzar Kvitsiani çıxış edib.



"Qanunlayihənin hazırlanma səbəbi Gürcüstanda son dövrdə tez-tez baş verən çadra, niqab və burka ilə turistlərin gəzməsidir. Qeyd olunan geyim şəxsin identifikasiya olunmasına imkan vermir. Bundan əlavə, terror baxımından da təhlükə daşıyır. Avropa ölkələrində artıq bu baxımdan qadağalar var. Konkret olaraq çadra, niqab və burka ilə gəzmək qadağandır. Hollandiya, Belçika, Fransa, Avstriya, Bolqarıstan və Latviyada qeyd olunan geyimlərdə gəzmək qadağandır. Cari ilin 1 iyulundan bu ölkələrin sırasına Danimarka da qoşulub", – layihənin izahat kartında yazılır.

Layihəyə əsasən, parklarda, hər növ ictimai nəqliyyat və başqa ictimai yerlərdə çadra, niqab və burka ilə gəzmək – 500 lari, təkrarlandığı halda isə 1500 lari dəyərində məbləğlə cərimələnəcək.



# HƏR ŞEYİ HAMIYA ÖYRƏTMƏK İSTƏYƏNLƏRƏ

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

***17-ci yüzillikdən pedaqogika elminə gətirilmiş "didaktika" anlayışı pedaqogikanın təlim və tərbiyə üsullarından bəhs edən şöbəsidir. Didaktika terminini ilk dəfə alman pedaqoqu Volfqanq Ratke (1571-1635) və çex pedaqoqu Yan Amos Komenski (1592-1670) işlətmişlər. Hər iki pedaqoqun aydınlaşdırmasında didaktika fərqli izah edilir. Məsələn, V. Rakteyə görə, didaktika elmləri, dilləri və incəsənəti öyrətmək məharətidir. Y. A. Komenskinin nöqteyi-nəzərincə isə, didaktika hər şeyi hamıya öyrətmək sənətidir.***

Mən bu yazıda məhz ikincinin nöqteyi-nəzərincə izah olunanlardan bəhs edəcəm. Amma pedaqoqlardan yox, qəzetimizə yazı göndərənlərdən və ümumiyyətlə, öz didaktikası ilə zəhlə tökən gənclərdən. Dəfələrlə yazılarımızda deməyə sözü olanların "Yeni YOL"a yazılarını göndərə biləcəklərini qeyd etmişik və dərc etmişik. Yazı göndərənlərin sayı hər iki nəslin – yaşlı və gənc nəslin nümayəndələri tərəfindən də yetərincədir. Bu, çox sevindirici haldır. Bəs niyə o yazıların hamısı dərc edilmir deyə sual yarana bilər (yarana bilər deyəndə, bu sualı yazı göndərən müəlliflərin özləri tez-tez verirlər). Əvvəla onu deyim ki, qəzetimiz səkkiz səhifəlikdir və ayda iki dəfə çıxır, göndərilən bütün yazıları bir sayda dərc etmək mümkün deyil. Belə olduğu halda qəzetdə ölkədə baş verən yeniliklərə, xəbərlərə yer qalmaz. İkincisi də, göndərilən yazılar qəzetin formatına uyğun deyil. Məsələn, yaşlı nəslin nümayəndələri əsasən tərifnamə və nekroloq tipli yazılar və dağlı, bağlı, güllü, bülbüllü şeirlər göndərirlər. Şeir gənc nəslin nümayəndələri tərəfindən də çox göndərilir. Bu qədər şeirdən nəinki qəzet, lap Borçalı şeir antalogiyası çap etmək olar. Əzizlərim, ünvanımıza üz tutduğunuz üçün çox sağ olun, amma "Yeni YOL" ədəbiyyat qəzeti deyil. Bu haqda ötən yazılarda da qeyd etmişik. Şeirlərinizi bizə yox, ədəbi dərgilərə, saytlara göndərin. Bizə publisistik yazılar yazın, amma didaktika olmasın, tərif yazıları, baş sağlıqları, yubiley yazıları olmasın. Bu problem ən çox da gənclərin yazılarında müşahidə olunur. Gənclər "hər şeyi hamıya öyrətmək" eşqi, həvəsi ilə yazırlar. Bilmirəm bu həvəs haradan gəlir, amma 18-20 yaşlı bir gəncin hamıya ağıl verməsi, yol göstərməsi absurddur. Subay bir gəncin ailə qurmaq haqqında "təlimləri", boşanma ilə bağlı "qınaqları" gülməlidir. Hələ mən, məktəblilərin ölüm, nakam sevgi, ədalətsiz dünya haqqında yazdıqları şeirləri demirəm. Axı yazı həm də təcrübə məsələsidir – həyat təcrübəsi.

İndi qəzetdə, jurnalda çap olunmamaq o qədər də dərd deyil. Bu yazını oxuyub "çap eləmirsən cəhənnəmə kimi çap eləmə" deyib, əlindəki qəzeti kənara tolazlayanlar da olacaq. Çünki sosial şəbəkələr var. Harada nə istəyirsən, necə istəyirsən "hər şeyi hamıya öyrədə", oxuda bilərsən, hələ üstəlik "like" da toplayıb, paylaşdıra və beləliklə də məşhuri-cahan ola bilərsən. Sosial şəbəkə demiş, onsuz da hər gün "Facebook"da şeir paylaşanların, ağıl verənlərin, məhkəmə quranların, 4-5 dilli status yazanların əlindən bilmirsən hara qaçasan. Üstəlik bütün bunları qəzetdə, jurnalda da etmək istəyirlər. 4-5 dilli status yazanlara gəldikdə isə, bu paliqlotların kosmopolit təbrikləri 4-5 dildə olsa da çox anlaşılmazdır. Bu başqa bir mövzudur, qalsın sonraya.

Ümumiyyətlə, bilmirəm müqəddəs vətənimizin havasındandı, suyundandı, bizdə "hərşeyşünaslar" daha çoxdur. Çayxanalardan tutmuş sosial şəbəkə virtualxanalarına qədər hamı hər şeyi bilir, hamı hər mövzuda yazır, məsləhət verir, qınayır. Bu kompleksli özünüifadə forması günümüzün bəlasına çevrilib desək heç də böyütmüş olmarıq.

***Belə, hörmətli oxucu, sənin zövqünün korlanmaması üçün əlimizdən gələni edirik. Buna görə bizi qınamamalıdırlar. Biz öyrətmək əvəzinə, ağıl vermək əvəzinə, öyrənmək – beşikdən qəbrə qədər, ağıllanmaq, maariflənmək, savadlanmağı üstün tuturuq.***

# MAMUKA BAXTADZE: MARİXUANANIN İSTEHSALINA CİDDİ NƏZARƏT EDİLƏCƏK



"Marixuananın becərilməsi və tibbi məqsədlə ixraca çıxarılması üçün istehsalına ciddi şəkildə nəzarət olunacaq. Belə olarsa maksimum dərəcədə xaos və qanuna qarşı olan prosesləri aradan qaldırmış olarıq", - deyə baş nazir Mamuka Baxtadze bildirib.

"Marixuananın istifadəsi ilə bağlı Konstitusiya Məhkəməsinin qərarından sonra yeni hüquqi reallıq qarşısında qaldıq – marixuanadan şəxsi məkanda istifadə etmək nə cinayət, nə də inzibati qayda pozuntusu hesab olunmur. Bu qərar yayımlanan kimi mən Daxili İşlər Nazirliyinə tapşırdım ki, müvafiq qanunlayihə hazırlansın. Qanunlayihə marixuananın ictimai məkanda istifadəsinin qadağan edilməsi üçün çox ciddi çərçivələr yaratmalıdır. Müvafiq olaraq yeni tənzimləmələrə dair qanunlayihə hazırlandı və müzakirədən sonra Parlamentə göndərəcəyik.

İctimai marağa və təhlükəsizliyə zərər dəyməsin deyə bu qanunlayihənin vaxtında müzakirə olunması vacibdir. Hüquq mühafizəçilərinin marixuanadan istifadənin yoxlanılması berketi olmalıdır ki, cəmiyyət, xüsusən də bizim gənclər mümkün zərərdən və zərərli təsirlərdən qorunmuş olsunlar", – qeyd edib M.Baxtadze.

Baş nazirin sözlərinə görə, qanunlayihəyə əsasən, ictimai yerlərdə, ictimai nəqliyyatda, yetkinlik yaşına çatmamış şəxslərin yanında, tədris müəssisələri yaxınlığında, iş vəzifəsini yerinə yetirən zaman marixuanadan istifadə ciddi şəkildə tənzimlənəcək və cəzalandırılacaq.

"Bu tənzimləmələr eləcə də dövlət məmurlarına, pedaqoqlara, həkim və müxtəlif peşə nümayəndələrinə aiddir. Yeniyetmələrin marixuanadan istifadəsinin zərərli təsirinə görə, həmçinin 21 yaşa qədər şəxslərdə populyarlaşdırma yaratmağa cəhd göstərən şəxslər də cəzalandırılacaq. Xüsusən qeyd etmək istəyirəm ki, istifadənin populyarlaşdırılması və reklamı üçün məsuliyyət ciddiləşəcək. Marixuananın kiməsə verilməsi yenə də cinayət məcəlləsi olaraq qalır və cəzalandırılır", - deyə baş nazir izah edib.

Mamuka Baxtadzenin sözlərinə görə, hökumət bütün risklərlə tanışdır və ona görə də marixuanadan istifadəni hüquqi çərçivəyə salmağa qərar verib.

"Əgər istifadə hüquqi çərçivəyə salınmazsa, bu çox böyük risklər yaradacaq. Biz deyəndə ki, reqlamentləşdirmə vacibdir, bizim üçün çıxış nöqtəsi bu bitkinin istifadəsinin risk yaratmamasıdır.

Əlbəttə, bu məhsulun ixraca çıxarılmasını istisna etmir, amma bu ciddi şəkildə tənzimlənməlidir. Biz əmin olmalıyıq ki, bu maddənin bir qramı belə qanunsuz dövriyyədə olmayacaq və bizim əhaliyə sağlamlıq problemləri yaratmayacaq", - M. Baxtadze vurğulayıb.

Qeyd edək ki, hökumət qanunvericilik təşəbbüsü hazırlayıb və ona əsasən, ixraca çıxarılması məqsədi ilə əczaçılıq və kosmetik vasitələr üçün Gürcüstanda marixuananın istehsalına icazə verilir.

# GÜRCÜSTANIN BAŞ NAZİRİ SENTYABRIN 16-SI ABŞ-A RƏSMİ SƏFƏR EDƏCƏK

Sentyabrın 16-sı Gürcüstanın baş naziri Mamuka Baxtadze Amerika Birləşmiş Ştatlarına rəsmi səfər edəcək. Bu barədə M. Baxtadze keçirdiyi brifinqdə bildirib. Onun sözlərinə görə, rəsmi səfər çərçivəsində Vaşinqtonda bir çox vacib görüşlər keçiriləcək.

Məlumata əsasən, səfər çərçivəsində Mamuka Baxtadze Nyu-Yorkda keçiriləcək BMT Baş Assambleyasının 73-cü sessiyasında çıxış edəcək.

"Bu tribuna ölkəmiz üçün ən vacib və əsas məsələləri ictimaiyyətə çatdırmağa imkan verəcək. Biz tədbirdə mühüm görüşlər keçirəcəyik, o cümlədən media ilə, üçüncü sektor nümayəndələri ilə görüşlərimiz baş tutacaq. Biz səfərdən yüksək nəticələr gözləyəcəyik. Bu, strateji tərəfdaşlarımızla münasibətlərimizi daha da yüksək səviyyəyə çatdırmağa kömək edəcək", - deyə M. Baxtadze bildirib.

# GƏLƏN İL GÜRCÜSTAN SİLAHLI QÜVVƏLƏRİNDƏ XİDMƏT EDƏNLƏRİN SAYI DƏYİŞMƏYƏCƏK



Gürcüstan Silahlı Qüvvətlərində xidmət edənlərin sayı 2019-cu ildə dəyişməyəcək və 37 min nəfər təşkil edəcək. Bununla bağlı qərar Gürcüstan Milli Təhlükəsizlik Şurasının sentyabrın 11-də keçirilən iclasında qəbul edilib.

Şuranın katibi David Rakviaşvili jurnalistlərə bildirib ki, şurada bu məsələyə hər il baxılır və qəbul olunmuş qərar dekabrın 31-dək Parlamentdə təsdiqlənir.

Qeyd edək ki, Gürcüstan Silahlı Qüvvətlərində hərbi xidmət iki hissədən ibarətdir: müqavilə əsasında xidmət (müddətdən artıq xidmət) və həqiqi hərbi xidmət. Müqavilə əsasında xidmət könüllüdür. Həqiqi hərbi xidmətə çağırış isə ildə iki dəfə olur.

David Rakviaşvili deyib ki, şuranın iclasında Silahlı Qüvvələrdə islahatlar, təhsilin keyfiyyətinin yüksəldilməsi və ehtiyat hərbçilərin hazırlığı barədə də müzakirələr aparılıb. Bu, şuranın sonuncu toplantısı olub. Yeni Konstitusiyaya görə, bu qurum ləğv edilir və onun əvəzinə Gürcüstan prezidenti yanında Milli Müdafiə Şurası yaradılacaq. Milli Müdafiə Şurası yalnız müharibə şəraitində çağırılacaq.

## TÜRKİYƏ VƏ RUSİYA PREZİDENTLƏRİ SENTYABRIN 17-DƏ SOÇİDƏ GÖRÜŞƏCƏKLƏR

Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan sentyabrın 17-də Rusiya prezidenti Vladimir Putinlə Suriyada yaranan vəziyyəti müzakirə etmək niyyətindədir. Bunu Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu Pakistanda keçirilən mətbuat konfransında bildirib.

“Son günlər müxtəlif ölkələrlə danışıqlar aparırıq. Biz terrorla mübarizə aparmağa hazırıq, həmçinin Suriya böhranının siyasi yolla həll olunmasını istəyirik və bu məsələlərdə əməkdaşlığa razıyıq. Lakin terrorla mübarizə bəhanəsi ilə qadın, uşaq və mülki şəxslərə zərbələr vurulmasının əleyhinəyik. Yaxın günlərdə prezident Ərdoğan Suriyada yaranan vəziyyəti Vladimir Putinlə müzakirə edəcək”, - deyə Çavuşoğlu bildirib.

Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov dövlət başçılarının sentyabrın 17-də Soçidə görüşünə hazırlıq görüldüyünü təsdiqləyib.

Qeyd edək ki, 2017-ci ildə Suriyanın İdlib əyalətində silahlarını könüllü şəkildə yerə qoymaq istəməyən üsyançıların və onların ailə üzvlərinin keçə biləcəyi şimal təhlükəsizlik zonası yaradılıb. BMT baş katibinin Suriya üzrə xüsusi nümayəndəsi Staffan de Misturanın məlumatına əsasən, bu regionda üsyançı “Cəbhət ən-Nusra” hərəkatının 10 min döyüşçüsü fəaliyyət göstərir.



## AVROPA KOMİSSİYASI SAATLARIN MÖVSÜMİ ÇƏKİLMƏSİNDƏN İMTİNA ETMƏYƏ ÇAĞIRIR




Avropa Komissiyasının rəhbəri Jan-Klod Yunker sentyabrın 12-də Avropa Parlamentinə müraciətində mövsümlə bağlı saatların irəli-geri çəkilməsi praktikasından imtina olunması barədə təklif irəli sürüb. Bu barədə Avropa Komissiyasının mətbuat xidməti məlumat yayıb.

“Saatların çəkilməsi praktikası ləğv edilməlidir. Avropa İttifaqına üzv ölkələr vətəndaşların yay və ya qış vaxtı ilə yaşamasına özləri qərar verməlidir. Mən Avropa Parlamenti və Avropa İttifaqı Şurasının bu fikirlə razılaşacağını və daxili bazarımız üçün həll yolu tapacağını gözləyirəm”, - Jan-Klod Yunker belə deyib.

“Biz saatların mövsümlə bağlı çəkilməsini dayandırmağı təklif edirik. Bu, vətəndaşlara qazanc əldə etməyə imkan yaradacaq”, - deyə nəqliyyat üzrə Avropa komissarı Violeta Bults bu məsələ ilə bağlı fikrini bildirib.

Bu ilin avqustunda Avropa Komissiyası yay və qış vaxtlarına keçid məsələsi ilə əlaqədar təşkil olunan online-səsvermə barədə ilkin məlumatları dərc edib. Səsvermənin nəticələrinə əsasən, avropalıların 84 faizi saatların çəkilməsinin əleyhinə çıxıb. İyul ayının 4-dən avqustun 16-dək davam edən səsvermədə 4,6 milyon insan iştirak edib.

## İCTİMAİ YERLƏRDƏ MARİXUANADAN İSTİFADƏ EDƏNLƏR CƏRİMƏLƏNƏCƏKLƏR

Gürcüstanın Daxili İşlər Nazirliyi marixuanadan istifadə etmənin ciddi hüquqi çərçivəyə salınması üçün qanunlayihə üzərində çalışır. Müvafiq məlumatı müəssisənin mətbuat xidməti yayımlayıb.

DİN-in planına əsasən, aşağıdakı hallarda şəxs marixuanadan istifadə etdiyi üçün cərimələnəcək:

İctimai yerlərdə;

Hər növ ictimai nəqliyyatda;

Yetkinlik yaşına çatmamış şəxsin yanında;

Tədris müəssisələrində;

18 yaşa qədər şəxslərə aid olan başqa müəssisə, tikililərdə və onların mülkündə olan ərazilərdə;

Yetkinlik yaşına çatmamış şəxslər üçün ayrılmış ictimai toplantılarda və ya onların ətraf ərazisində olan müəyyən radiusda;

Vəzifə öhdəliyini yerinə yetirən zaman müəyyən ixtisas nümayəndələri üçün (məsələn, pedaqoqlar, həkimlər, dövlət məmurları).

Qanunlayihəyə əsasən, müəyyən peşə sahibi olan şəxslərin marixuanadan istifadə etməsinə görə peşə hüququ əlindən alınacaq və vətəndaş hüquqları məhdudlaşdırılacaq.

Xatırladaq ki, 30 iyulda Konstitusiya Məhkəməsi “Qirçi” Partiyasının üzvlərinin şikayətinə bəraət qazandırıb və marixuanadan istifadə üçün inzibati cəriməni ləğv edib. Məhkəmə bu halda marixuananın əldə edilməsi yollarını müzakirə etməyib.

## QEYDİYYAT ÜÇÜN BİZNESMENLƏRƏ İKİ AY VAXT VERİLİB

İqtisadi İşlər üzrə Reyestrdə işgüzarlıq profili qeyd olunmayan şirkətlər cərimələnəcəklər. Bu haqda Əmək Təhlükəsizliyi üzrə Müfəttişliyin rəhbəri Beka Peradze bildirib.

Onun sözlərinə görə, sanksiya mexanizmi 1 oktyabrdan qüvvəyə minəcək.

“İstəyirəm sizin vasitənizlə biznesmenləri İqtisadı İşlər üzrə Reyestrdə öz şirkətlərinin profilini qeydiyyat etdirməyə çağırım. Bunun üçün onlara 1 avqust tarixindən iki aylıq vaxt verilib. Həmin dövr ərzində bütün şirkətlər reyestrdə fəaliyyətinin profilini qeyd etməlidir. Əks halda 1 oktyabrdan onlar cərimələnəcəklər. Cərimə isə 1000 larini təşkil edir”, - deyə Beka Peradze bildirib.

## SENTYABRIN 30-DA SÜRÜCÜLÜK VƏSİQƏSİNİN BİLETLƏRİNƏ ƏLAVƏLƏR OLUNACAQ

Sentyabrın 30-dan sürücülük vəsiqəsinin biletlərinə əlavələr olunacaq. Konkret olaraq, Gürcüstanın daxili işlər nazirinin 31 avqust sərəncamında qeyd olunan sürücülük vəsiqəsinin nəzəriyyə imtahanı testlərinə eko-idarə imtahan biletləri əlavə olunur. Ümumilikdə 51 məsələ nəzərdə tutulub.

Nazirin sərəncamı ilə birgə əlavələr də var. Əlavələrdə eko-idarə imtahan biletləri və onların düzgün cavabları verilib.

## SURİYADA ƏMƏLİYYAT



Sahib MUSTAFA
*sahib1975.sm@gmail.com*

***Son aylarda Suriyada intensiv hərbi əməliyyatlar azacıq səngisə də, sentyabrın 8-dən yenidən bərpa edildi. Bu dəfə Tehranın dəstəyi ilə Moskva və Dəməşq müxalifət ordusunun İdlib bölgəsində mövqelərinə hava zərbələri endirməyə başladı. Bir gün öncə Rusiya, Türkiyə və İran prezidentlərinin Tehran görüşünün məzmunu hərbi əməliyyatların başlanması ilə bağlı idi. Türkiyə prezidenti Ərdoğan başlanılacaq hərbi əməliyyatların neqativ nəticələri haqda Rusiya və İran həmkarlarını xəbərdar etsə də pozitiv nəticə əldə olunmadı. Bu barədə daha sonra... Bəs Putin və Əsədin İdlibə zərbələr endirməkdə israrçı olmasının səbəbləri nə idi?***

İdlib vilayəti Suriyanın şimalında Türkiyə ilə həmsərhəddə yerləşir və burada təxminən 4 milyona yaxın əhali yaşayır. Bölgə Türkiyənin də dəstəklədiyi “Azad Suriya Ordusu”nun nəzarət etdiyi yeganə bölgədir. Əsəd rejiminə yaxın qaynaqların verdiyi məlumata görə, İdlibdə 30 minə yaxın qiyamçı qruplaşma üzvləri mövcuddur. Ölkə ərazisində nəzarətini tam bərpa etmək istəyən Bəşər Əsəd üçün İdlib mühüm əhəmiyyət kəsb edir. Əgər kürd yaraqlılarının Suriyanın şimalında Türkiyə ilə sərhəd zolağına nəzarət etməsini nəzərə almasaq prezident Əsədin İdlibdə uğur qazanması onun tam daxili qələbə çalması anlamına gəlir. Suriyada xaos başlayandan bəri Kremldən hər çeşid dəstək alan Əsəd ölkədə vətəndaş müharibəsinə son qoymaqda qərarlılıq nümayiş etdirməkdədir.

Suriyada Bəşər Əsədin ölkəyə tam nəzarət etməsi ilk növbədə Moskvanın maraqlarına xidmət edir. Belə ki, Rusiya Yaxın Şərq regionunda mövqeyini daha da möhkəmlətmiş olacaqdır. Rusiya, İran və Suriya üçbucağına son zamanlar ABŞ-la münasibətlərdə böhran yaşayan Türkiyəni də əlavə etsək regionun goestrateji mənzərəsinin köklü surətdə dəyişməsini söyləyə bilərik.

Lakin İdlib əməliyyatı qəti olaraq Türkiyənin mövqeyini əks etdirmir və adıgedən vilayət Ankaranın maraqları çərçivəsindədir. Türkiyə Suriyanın şimalında mövqelərini möhkəmlədərək kürd yaraqlılarına qarşı təsirini artırmaq niyyətindədir. Beləliklə də, Ankara terrorçuları ən azından öz sərhədlərindən bir qədər uzaqlaşdırmaq arzusundadır. Ərazidə Türkiyəyə loyal Əsəd rejminə müxalif “Azad Suriya Ordusu” dislokasiya olunmaqdadır. Türkiyənin kürd terrorçu yaraqlılarına qarşı Afrində apardığı “Zeytun budağı” əməliyyatı zamanı müxalif ordu Ankaranın yanında qərar tutmuşdur.

Bu arada Türkiyə prezidenti İdlib əməliyyatının dərhal dayandırılması üçün dünya birliyinə - xüsusilə də Avropaya yenidən mesaj göndərib. Ərdoğanın fikrincə Rusiya və Suriyanın başlatdığı əməliyyat terrorçulara qarşı deyil, məhz müxalif qüvvələrin fiziki surətdə məhv edilməsinə yönəldilmişdir. Türkiyə dövlət başçısı terrora qarşı beynəlxalq antiterror əməliyyatının birgə aparılmasının vacibliyini vurğulayır.

***Hərbi əməliyyatın yenidən başlaması regionda yeni fəsadlara yol açacağı barəsində Ərdoğanın dünya birliyinə səslənməsi əbəs deyil. İlk növbədə bölgədə humanitar fəlakətin yaşanacağı və 3 milyondan çox yeni qaçqın ordusunun Türkiyə və Avropaya üz tutmasına gətirib çıxaracaqdır. Artıq Böyük Britaniya və Almaniya tamamilə Ərdoğanın təşəbbüsünü dəstəklədiyi haqda rəsmi bəyanət vermişdir. Fransa prezidenti Makron isə bir qədər də qabağa gedərək, əməliyyat zamanı Əsəd kimyəvi silahlardan istifadə edəcəyi təqdirdə Suriyaya zərbələr endirəcəyini bildirmişdi. İdlib əməliyyatına dair Vaşinqtonun mövqeyi isə diqqət çəkəndir. İdlib bölgəsi ABŞ-ın maraqlarına daxil deyil. Ağ Evin çəkdiyi “qırmızı xətt” ABŞ-ın maliyyələşdirdiyi və PYD-nin nəzarət etdiyi Suriya Kürdüstanını əhatə edir. Ona görə də Vaşinqton dolayısı ilə İdlib əməliyyatına “yaşıl işıq” yandırdığını və bir növ Türkiyəni cəzalandırdığını söyləyə bilərik. Əgər Rusiya və Əsəd rejminin növbəti hərbi əməliyyatı bu xətti keçərsə Suriya yenidən misli görünməmiş qan gölünə çeviriləcəkdir.***



# TƏHLÜKƏDƏ OLAN GƏNCLİYİMİZ

Hacı BƏKİROĞLU
hacibakir@mail.ru

***Cəmiyyətin aparıcı potensial qüvvəsini təşkil edən hissəsi GƏNClərdən ibarət olur. Bütün dövrdə ən əhəmiyyətli məsələlərin həllində gənclərin rolu əvəzsiz olmuşdur. İstər müharibə meydanlarında, istər fiziki və ya zehni əmək sahələrində, istərsə də cəmiyyətin mədəni və mənəvi inkişafında başlıca amil gənclik sayılmışdır.***

"Gənclik" deyəndə nə başa düşülür?

İnsan Allahın yeganə məxluqudur ki, düşüncə qüvvəsinə malikdir və gəncliyindən qocalığına kimi öz yaradıcılığını maksimal səviyyəyə qaldırır. Hər bir şəxsin bir dövrü var ki, bu dövrə canlanma və inkişaf dövrü də deyirlər. Bu dövr gənclikdir. Gənclik insanın ən parlaq həyat səhifələridir ki, bu dövrdə o, ailə qurur, iş baxımından özünə yol açır, bədəninin sağlam və güclü olmasını hiss edir. İnsan bu dövrdə daha çox yaşamaq, yaratmaq və həyatın ləzzətlərindən bəhrələnmək istəyini gizlətmir. Ancaq bu istəklər bütün gənclərdə olsa da, bu arzuya hamı çata bilmir. Əlbəttə, bu istəklərə müəyyən manelər vardır ki, onların bəzisi olmalı, bəzisi isə olmamalıdır. (Bir sözlə, rəsmi surətdə kişinin kişi ilə evlənməsinə çalışanlar, bu tipli xəstələrin müalicəsinə deyil, artmasına razı olanlar, narkotiklərdən qadağasız istifadəyə çalışanlar, əxlaqsız qadınlara bəraət qazandırmaq və müəyyən hüquq təyin etmək istəyənlər həqiqətən gəncliyimizin məhv olmasına çalışanlardır. Qərbin fəsad küləyilə vətənimizə gələn bu cür istəklər insanın mənəvi baxımdan məhv olmasına və milli mentalitetimizə zidd olduğundan belə şeylərə heç cür icazə vermək olmaz).

Lakin sözün əsl mənasında bəzi gənclərin gəncliklərini hiss etməməsinin səbəbləri həm maddi çətinliklər, həm də mənəviyyatın olmamasından irəli gəlir. Bu səbəblərin hər ikisi gənclərdə öz psixoloji təsirlərini buraxır.

Maddi çətinliklər: Ölkəmizdə iş yerlərinin az olması, gənclərə lazımi qayğının olmaması, bir çox iş yerlərində maaşların az olması, gənclərə ayrılan kreditlərin mənfəətsizliyi, gənclərin ev sahibi olmaması və buna görə ailə qurmaması və ya ailəlilərin bir qisminin kirayədə yaşaması, kasıb gənclərin evlərinə lazımi ərzaq, geyim və ev ləvazimatlarını ala bilməməsi, onları ruh düşkünlüyünə və psixi zəifliyə sürükləyir. Buna görə onlar gəncliklərinin itirilməsini duyurlar və həyata naümid yanaşaraq bəziləri bu səbəblərdən özlərinə qəsd etməkdən belə çəkinmirlər. Bu özünə qəsd istər intihar ilə, istərsə pozğun həyata, içkiyə və ya narkotikə aludə olmaqla baş verir.

Mənəviyyətin olmaması:

- Qafqazın 70 il SSRİ-nin əsarəti altında yaşaması səbəbindən, xalqımız mənəvi dəyərlərini elə həmin dövrdə itirməyə başladılar. Onların ateist ideologiyası ilə tərbiyə alması əksəriyyətə mənfi təsirini qoydu. Bu baxımdan valideynlər lazımi tərbiyəni gənclərə verə bilmədilər. Bu baxımdan istər elmdə, istərsə də mənəvi-əxlaqi keyfiyyətlər baxımından digər ideologiyaları arxada qoyan İslam ideologiyasından ayrı düşdülər.
- Hal-hazırda isə Qərbin əxlaqsızlıq təbliğatı gənclərimizi mənəvi baxımdan tənəzzülə sürükləyir. Qızların və oğlanların əksəriyyəti Avropa sayağı danışıq, geyim və əxlaq yolunu seçməyə can atırlar. Günlərini barlarda, diskotekalarda keçirən cavanlar bu nəfsi-rahatlıqları qoyub, əxlaqi keyfiyyətlər, milli mentalitet və ya torpağı qorumaq kimi maddi ləzzətlər olmayan şeylərə üz tutması qeyri-mümkündür.
- Elektron informasiya yayımlarının kütləviliyini təşkil edən televiziya və radio kanallarında efirə gedən milli vətənpərvərlik, mənəviyyat və dini verilişlər, əyləncəli-şou verilişləri ilə müqayisədə demək olar ki, yox dərəcəsindədir. Televiziyada yayımlanan xarici serialların və filmlərin psixoloji təsirləri də həddindən artıq çoxdur. Ər-arvad xəyanətləri mövzusunda olan seriallar televiziyalarda gedəndən sonra, milli qeyrətimizə yaraşmayan və böyük günahlardan sayılan xəyanətlərə gənclərimiz arasında daha çox rast gəlinir. Belə olan halda boşanma və qəsdən adam öldürmələrin sayı şübhəsiz artmaqdadır. Bu hələ öz kanallarımızın acı nəticələridir. Peyk vasitəsilə yayımlanan minlərlə nəzarətsiz telekanalların "demokratik prinsipli" fəaliyyətlərinin nə ilə nəticələnəcəyini düşünmək belə insanı qorxudur.

İnternetdə olan saysız-hesabsız əxlaqa zidd pornoqrafik, sadizm və s. ideyaları təbliğ edən saytlar heç bir manеə görmədən ölkəmizin informasiya məkanına daxil olur və formalaşmaqda olan yeniyetmə və gənclərin istifadəsinə verilir. Bu gün öz mənəviyyatını bu cür saytlarla "doydurmuş" gənc sabah ölkənin prezidenti, naziri, deputatı, müəllimi, həkimi, hüquqşünası, polisi, hərbçisi, dindarı və digər əhəmiyyətli vəzifə sahibi olacaq. Görəsən bu cür saytların gələcəkdə öz dağıdıcı təsirini göstərməyəcəyinə kim zəmanət verə bilər?

***Yaşamağa məhkum olduğumuz informasiya cəmiyyətində qeyd etdiyimiz kütləvi informasiya vasitələrinin varlığı labüddür. Heç bir cəmiyyət bunlarsız inkişaf edə bilməz. Ancaq maddi inkişaf xatirinə əsrlər boyu formalaşan və qorunan milli-mənəvi dəyərlərimizi məhv edə bilmərik. Bu informasiya burulğanında batmamaq, ən əsası isə gələcəyimizi hər cür mənəvi mutasiyadan qorumaq üçün bütün vasitələrdən istifadə etməliyik. Gənclik daim nəzarət altında olmalıdır. Onlara özünə nəzarət hissi və dinimizin əxlaq kodeksləri aşılanmalıdır.***

# ÖRTÜNMƏK TƏRZLƏRİ XANIMIN İNANC VƏ ŞƏXSİ SEÇİMİNDƏN İRƏLİ GƏLİR

## ONA HÖRMƏTLƏ YANAŞILMALIDIR



**Neçə gün öncə qanunvericiliyə müvafiq dəyişikliklərin edilməsi təşəbbüsü ilə "Patriotlar alyansı" fraksiyasının üzvü Emzar Kvitsiani çıxış edib.**

Onun verdiyi təklifə əsasən, Gürcüstanda ictimai yerlətdə çadra (çarşab) və niqabdan istifadənin qadağan olunması və əməl etməyənlərin isə pulla cərimələnməsidir.

Bəzi Avropa ölkələrindən təsirlənib əssasız arqumentlər gətirən bu şəxs bilməlidir ki:

• Yaradanın əmri olan örtünmək tək İslamda deyil, bütün dinlərdə mövcuddur. Çadraya bənzər geyim tərzinə elə xristian və yəhudi dinlərində də rast gəlinir. Parlamentin qanun qəbul edib, tək bir dində olan örtük tərzinə qadağa qoyması necə haqlı hesab oluna bilər?

• Gürcüstana yaxın ölkələrin vətəndaşlarının və ölkədə qonaq olan turistlərin böyük bir hissəsi müsəlmandır. Onların qadınlarının da müəyyən hissəsinin geyim formasında niqab və çadra vardır. Çadraya qadağa qoyulduğu zaman ölkə onların inanc və şəxsi seçim hüquqlarını pozmuş olmazmı? Bir halda ki, ölkəmizdə açıq-saçıq gəzənlərə sərbəstlik hüququ tanınıb.

• Kəlağayının, yaylığın, örpəyin, yaşmağın, baş örtüyünün mövcud olduğunu ölkəmiz yeni kəşf etmir. Bu, ta qədimdən ana-nənələrimizin geyim tərzində rast gəlinibdir. Bir zamanlar Sovetlər dövründə cəhalət kimi təqdim olunaraq, tənqid edib mübarizə apardılar. İndi isə demokratik, din və vicdan azadlığının hökm sürdüyü ölkədə belə qanun qəbul olunarsa insan haqlarından söz gedə bilərmi?




Marixuananın leqallaşmasını tələb edən belə bir şuar deyirdi: "Mənim bədənim mənə aiddir". Bu məsələdə həmin şüar açıq-saçıq olmağa keçərli olduğu halda örtünənlərə nədən şamil olmur?

Biz demirik İslamda qadınların çadra geyməsi və niqablı olması qəti şərtdir. Qadın üçün vacib olan – hicab şərtlərinə cavab verən libas geyinməkdir. Hicab qadının örtünməsi vacib olan bütün bədən üzvlərini tam örtməli, şəffaf olmamalı, bədənə kip yapışacaq dərəcədə dar olmamalı və nəzər-diqqəti cəlb edəcək qədər əlvan və cəlbedici olmamalıdır. Bu şərtlərə cavab verən hər cür geyim şəriətdə məqbuldur.

Lakin ziyarətgahlarda, ibadət yerlərində və xüsusi mərasimlərdə çadradan istifadə olunur. Bəzən də müəyyən xanımlar yuxarıda sadaladığımız şərtlərə ən kamil şəkildə cavab verən libas növü çadra olduğunu düşünüb ona üstünlük verirlər.

Əgər bir insan hesab edirsə ki, o, hicablı olmaq üçün çadrada gəzməlidir, bu, onun hüququdur. Hicab bizim İslam dinimizdən irəli gələn, bizim inancımıza daxil şərtlərdən biridir. Ona görə də hicaba qarşı hər hansı təzyiqləri normal hesab edə bilmərik.

**Tolerantlığın hakim olduğu dövlətimizdən bu olduqca həssas məsələdə diqqətli olmasına, müsəlman xanımların inanc və seçimlərinə hörmətlə yanaşmasına və ölkə Parlamentini hicabın bu növünə qadağa ilə bağlı qanunun qəbul etməməsinə çağırırıq.**

Ramin İGİDİOV
Gürcüstan Müsəlmanları İdarəsinin şeyxi

# TƏHSİLİN ƏN UCUZ OLDUĞU AVROPA ÖLKƏLƏRİ

**Avropa təhsilinin cəlbedici olmasına baxmayaraq tez-tez tələbələr onu əlçatan hesab etmirlər. Məsələ odur ki, ənənəvi olaraq Avropa ölkələrində təhsil olduqca baha hesab olunur.**

Avropada tamamilə pulsuz təhsil var? – Yoxdur, ancaq təqaüdlər və təhsil zamanı çalışmaq imkanı var. Bunların hamısı tələbələrə Avropanın prestijli universitetlərində belə təhsil haqqını ödəmək imkanı verir.

Təhsilin ən çox əlçatan olduğu Avropa ölkələrini təqdim edirik:

**İsveç** dünyanın ən gözəl və zəngin ölkələrindən biridir. Bundan əlavə, ölkədə təhsil əlçatandır. Ölkənin 35 universitetində 900-dən çox kurs ingilis dilində tədris olunur.

2010-cu ilə qədər İsveçdə xaricilər də pulsuz təhsil ala bilirdi. Təəssüf ki, 2010-cu ildən ökədə təhsil Avropa İttifaqına daxil olmayan ölkələrin vətəndaşları üçün pullu oldu. Buna baxmayaraq, İsveçdə tələbələrə olduqca çox təqaüd təklif edirlər. İsveçin bir neçə univeristeti xaricilərin təhsilini tam və ya bir hissəsini maliyyələşdirməyi təklif edir:

· Lund University
· Halmstad University
· Uppsala University
· Stockholm University
· Stockholm School of Economics
· Jonkoping University

**Almaniya**

2014-cü ilin oktyabr ayından Almaniya universitetlərində bakalavr təhsili almaq bütün tələbələr, həmçinin xaricilər üçün pulsuz oldu. Belə ki, ölkənin bəzi dövlət universitetlərində 50-100 avro dəyərində administrativ vergi mövcuddur.

Almaniyada bakalavr və magistratura üzrə ingilis dilində təqribən 900 müxtəlif sahədə kurslar tədris olunur – mühəndislikdən sosial elmlərə qədər.

Almaniya ingilis dilli təhsili aktiv şəkildə inkişaf etdirir. Bu, xarici tələbələrin cəlb olunmasına dəstək olur. Almaniyada təhsil almaq üçün gedən xariciləri və yerli şirkətlərlə çalışmaq istəyən gənc mütəxəssisləri sevinclə qarşılayırlar.

**Finlandiya**

Finlandiyada xarici tələbələr pulsuz təhsil ala bilər. Bundan əlavə, yerli universitetlərdə ingilis dilində çox kurslar tədris olunur. Ölkədə yaşamaq xərclərini isə xarici tələbələr özləri ödəməlidirlər. Finlandiyada tələbəlik həyatı təxminən 500-800 avroya başa gəlir.

**Norveç**

Norveçin dövlət universitetlərində və universitetin kolleclərində təhsil almaq yerli və xarici tələbələr üçün hər səviyyədə (bakalavr, magistr və PHD) pulsuzdur.

Buna baxmayaraq, bəzi dövlət universitetləri və kolleclərində, xüsusən də magistratura səviyyəsində təhsil almaq pulludur. Tələbələr, eləcə də 300-600 norveç kronu dəyərində administrativ vergi ödəyirlər.

Özəl universitetlərin əksəriyyətində oxumaq da pulludur. Buna baxmayaraq, burada təhsil haqqı başqa ölkələrdən ucuzdur. Norveçdə xaricilər təhsil zamanı yerli tələbələr kimi ödəniş edirlər. Tədris kursları ingilis dilindədir. Beləliklə, təhsil sistemi Amerikanın sisteminə bənzəyir. Məsələn, qrupa az sayda tələbə qəbul edilir və hər tələbəyə fərdi yanaşma mövcuddur.

Norveçdə müqayisədə təhsilin ucuz olmasına baxmayaraq ölkədə yaşamaq üçün eynisini deyə bilmərik. Norveç yüksək səviyyəlilərin yaşadığı ölkədir və evlərin, qidanın qiyməti də buna uyğundur.

**Sloveniya**

Təhsil almaq üçün Sloveniya möhtəşəm ölkədir. Bundan əlavə, ölkə İtaliya və Xorvatiya ilə sərhəddir. Avropada ən məşhur turistik yerlərdəndir.

Ölkədə bakalavr səviyyəsində pulsuz təhsil almaq mümkündür. Yerli universitetlər tələbələrə müxtəlif şəkildə güzəştlər təklif edirlər: qida obyektlərində, nəqliyyat və başqa mədəni tədbirlərdə.

Bu gün Sloveniya Şengen zonasına daxildir. Bunun hesabına son illər ərzində ölkədə xarici tələbələrin sayı iki dəfə artıb. Burada təhsil iki dildə - sloven və ingilis dilindədir.



Sloveniyada ingilis dili təqribən 150 kursda tədris olunur. Qəbul olduğu halda xarici tələbələr yalnız kiçik qeydiyyat məbləğini ödəməli olurlar.

Təhsilin əlçatan olmasına baxmayaraq Sloveniya beynəlxalq təhsil bazarında yenidir. Məhz buna görə də, hələ ki, ölkənin heç bir universiteti "Times Higher Education World University Ranking"ə daxil deyil.

**İslandiya**

İslandiyada xarici tələbələr pulsuz təhsil ala bilər. Bundan əlavə, İslandiya olduqca maraqlı ölkədir. İslandiyada 7 universitet fəaliyyət göstərir. Onlardan 4-ü dövlət universitetidir. Dövlət ali müəssisələrində təhsil pulsuzdur. Qəbul üçün xaricilər qeydiyyat xərci olaraq 100-250 avro ödəməli olurlar.

Ölkədə, eləcə də müxtəlif təqaüd proqramları əlçatandır. İslandiya universiteti və Təhsil və Elm Nazirliyi İslandiyanın tarixini, ədəbiyyatını və dilini öyrənən tələbələrə təqaüd təklif edir. Bundan əlavə, təqaüd ala bilməyən tələbələr üçün "Icelandic Student Loan Fund"u maddi dəstək göstərir.

Bəzi İslandiya təhsil müəssisələri müxtəlif banklar, təşkilat və şirkətlərlə əməkdaşlıq edir. Bu isə tələbələrə güzəşt və ya işlə təmin olunmaq imkanı verir. İslandiyada bütün tələbələrə Avropa səyahəti, telefon zəngləri və s. üçün endirim kartı verirlər.

Hazırladı:
Aynurə ƏLİYEVA

## XÜSUSİ MÜƏLLİM STATUSU ALAN PEDAQOQLARIN ƏMƏK HAQQI 400-500 LARİ ÇƏRÇİVƏSİNDƏ MÜƏYYƏN EDİLƏCƏK

Gürcüstanın təhsil, elm, mədəniyyət və idman naziri Mixeil Batiaşvili hökumət üzvlərinə xüsusi tədris ehtiyacı olan şagirdlərlə çalışan pedaqoqlara status verilməsi məsələsini təqdim edib. Mixeil Batiaşvili hesab edir ki, keyfiyyətli inkluziv təhsil almaq üçün fərqli imknları olan şəxslərin mütləq bərabər əlçatan təhsil mühiti olmalıdır. Bunda isə ən əsas rol xüsusi müəllimə düşür.

Qeyd edilməlidir ki, pedaqoqların funksiyasına şagirdin ehtiyacını nəzərə almaq və onunla fərdi və qrup şəklində çalışmaq, həmçinin məktəbin rəhbərliyi, müəllimlər və valideynlər üçün rekomendasiyaların işlənilməsi, fərdi tədris planı tərtib etmək, alternativ tədris resurslarının yaradılması-axtarılması daxildir.

2018-ci ilin 20 iyulunda "Ümumi təhsil haqqında" qanuna dəyişiklik daxil edilənə qədər xüsusi müəllimin məktəb administrasiya nümayəndəsi statusu var idi. Müvafiq olaraq, qanunla nəzərdə tutulmuş sosial güzəştlər onlara aid deyildi, müəllimlərin peşəkar inkişaf sxeminə düşmürdü, əmək haqqının artması imkanı yox idi və bu, onların motivasiyadan düşməsinə səbəb olurdu.

Dəyişikliklərdən sonra xüsusi müəllimin maaşının hesablanması ictimai məktəb müəllimi kimi müxtəlif meyarlara əsasən müəyyən ediləcək (təhsil və kvalifikasiya, iş təcrübəsi, iş ağırlığı və s.) və onların orta maaşı 400-500 lari çərçivəsində olacaq.

Hökumətin sərəncamına əsasən, xüsusi tədris ehtiyacı olan şagirdin təhsilinə dəstək üçün, həmçinin, məktəblərin maliyyələşdirilməsi də dəyişir. Əgər xüsusi ehtiyacı olan şagirdə dəstək olmaq üçün hər ay ictimai məktəb əlavə 350 lari ilə maliyyələşirdisə, dəyişikliklərdən sonra maliyyələşdirmə 500 lari olacaq.

## İCTİMAİ MƏKTƏBLƏRİN MALİYYƏLƏŞDİRİLMƏSİ ARTACAQ

Hökumətin qərarı ilə ictimai məktəblərin maliyyələşdirilməsi 2018-ci il üçün ayda orta hesabla 0,9 milyon lari dəyərində artacaq. Bu haqda Gürcüstanın təhsil, elm, mədəniyyət və idman naziri Mixeil Batiaşvili hökumət üzvlərinin iclasında danışıb.



Təhsil, Elm, Mədəniyyət və İdman nazirliyinin məlumatına əsasən, hökumət sərəncamı ilə bir şagirdə ayrılmış maliyyə normativinin müvafiq standart vauçeri artacaq. Bu isə gürcüdilli ictimai məktəblərin/sektorların başlanğıc pilləsinin saat cədvəli ilə bağlıdır.

"Saat cədvəli 2018-2019-cu tədris ilindən dəyişir. Konkret olaraq, həftəlik 3,5 saat yükü ötən tədris ilinin həftəlik saat yükünə əlavə olunacaq. Müvafiq olaraq, bir şagirdə ayrılmış maliyyə də artacaq .

Artım cari ilin büdcəsində nəzərdə tutulub və bu məqsədlə "Ümumi təhsilin maliyyələşdirilməsi üçün bir şagirdə ayrılmış maddi normativ və onun müvafiq standart vauçer sayının müəyyən edilməsi haqqında" Gürcüstan hökumətinin 2015-ci il, 14 sentyabr, 476 nömrəli sərəncamına dəyişikliklər daxil olacaq", - nazirlik tərəfindən yayımlanan məlumatda bildirilir.

# HEÇ VAXT GEC DEYİL

Yeniyetmə, məktəb çağlarında çoxlarında olduğu kimi mən də dünyamızı lazımi şəkildə dərk etməkdə çətinlik çəkirdim. Məktəbə gedirdik, oxuyurduq, əzbərləyirdik, nəsə etməyə çalışırdıq. Axırıncı cümlədə "çalışırdıq" sözündən istifadə etdim, ondan da əvvəl "nəsə", belə ki, bu "nəsə" sözün əsl mənasında hər şeyi korlayırdı. Əslində isə, nəsə etməyə çalışmamalı idik, bəlli işlərlə məşğul olmalı idik – kökündə məqsəd dayanan, məqsədə uyğun işlərlə məşğul olmalı idik. Sonrakı peşmançılıq fayda verməz. "Heç bir zaman gec deyil" cümləsini əsas götürüb ancaq və ancaq irəli addımlamaq lazımdır. Gec olsun, amma yetər ki olsun.

Uşaqlıq çağından taadım yeniyetmə çağına qədər məktəbə gedirik, az müddət deyil. 12 il! Bu müddət fikrində ikən papağını qabağına qoy və düşün: Mən bu həyatda kim olmaq niyyətindəyəm? Neçənci sinifdə və harada oxumağından asılı olmayaraq, bu sualı sən özünə verdinsə, demək gec deyil. Allahın yaratdığı bəndə çox şeyə qadirdir.

Uşaqlıqdan hər cür insanla rastlaşa-rastlaşa zaman gedir, sən isə böyüyürsən. İlk baxışdan gözə çarpan isə sənin boyundur. Və avtomatik olaraq insanlar sənin boyca böyüdüyünə daha çox fikir verərək ağıllandığını zənn edirlər. Ancaq sən özün öz içində bilirsən – sən nəyin nəsisən. Bu fikirlər toqquşmasının nəticəsində utanmayasan deyə əlindən gələn nə varsa özün üçün etməlisən.

Bilirəm ki, bizim cəmiyyətdə qeybət ən dadlı qida və ən çox qapı-qapı gəzən mövzudur. Onsuz darıxdırıcıdır sananlar da çoxdur. Elə deyil, vallah elə deyil!!!

Danışılacaq və çürüdülməsi gərəkən o qədər mövzular var ki, itinə tök, pişiyinə dağıt. Dedi-qodulardan uzaq durmaq lazımdır.

Uşaqlıqdan eşitdiyimiz "ağıllı ol" cümləsinin altında mən heç də ağıl sözünü düşünmürdüm. Ağıllı ol deyərkən nədənsə beynimə ilk və yeganə girən məna "tərbiyəli ol", "sözə qulaq asan ol" gəlirdi. Düşünürəm ki, bizim toplumda mənim kimiləri çoxdur. Böyüdükcə onu anladım ki, əslində başqalarının bizdən "ağıllı ol" tələbi və ya "ağıllı uşaqdır" tərifinin altında böyük və müdrik məna yatır. Amma bunu, bəlkə də bunları bizə deyənlər də bilmirlər, sadəcə toplumun qulağı alışdığı bir cümlə kimi işlədirlər. Ağıl, yəni insanda düşünmə və dərketmə qabiliyyəti nəzərdə tutulur.

Siz heç insan öz düşüncələrini nə ilə zənginləşdirə bilər deyə düşünmüşdünüzmü? Və yaxud dərketmə qabiliyyətini inkişaf etdirmək mümkündürmü?

Bəli, mümkündür.

Təbii ki, düşüncələrimizi televiziyaya həddindən artıq vaxt ayırmaqla deyil, bayağı musiqilərə qulaq asmaqla da deyil, özündən bilikli insanlarla zamanını bölüşdürməklə, onlarla dostluq etməklə, fikir mübadiləsi aparmaqla, kitablar oxumaqla, dünyada tanınmış başarılı insanların tərcümeyi halı ilə tanış olmaqla inkişaf etdirmək mümkündür.

Yaşadığımız zəmanə elə bir dövrdür



ki, oturmaq, durmaq vaxtı deyil. Həyatımıza bir başqa pəncərədən baxıb bir yarış kimi görmək lazımdır. Qarşımıza bir məqsəd qoyub mübarizə aparmaq lazımdır, müqavimət göstərmək lazımdır və irəliyə, maariflənməyə doğru iri-iri inamlı addımlar atmaq lazımdır.

İnsaf AYDIN

# YANĞIN TƏHLÜKƏSİZLİYİ NORMALARININ POZULMASINA DAİR CƏRİMƏLƏR 10 DƏFƏ ARTIR

Yanğın təhlükəsizliyi normalarının pozulmasına dair cərimələr cidd iləşir. Gürcüstanın İnzibati Xətalar Məcəlləsinə daxil edilmiş dəyişikliklərə əsasən, xüsusi hallarda sanksiyaların sayı 10 dəfə artacaq. Sanksiyalar 2018-ci ilin 1 noyabrından qüvvəyə minəcək.

Əgər indiyə kimi yanğın təhlükəsizliyi qaydaları və şərtləri haqqında texniki reqlamentin tələblərinin pozulması və ya yerinə yetirilməməsi 50 lari dəyərində məbləğlə cərimələnirdisə, noyabrın 1-dən bu cərimə 500 lari olacaq. Həmin hərəkət təkrar olunduğu halda cərimə 200 laridən 1000 lariyə qədər artacaq.

Daxildə yanğına qarşı su qurğuları, elektrik təchizatı, elektrotexnika məhsulları və yanğının söndürülməsi üçün ilkin vasitələrə təyin olunmuş yanğın təhlükəsizliyi tələblərinin pozulması 100 lari əvəzinə 1000 lari cərimələnəcək.

Tikilidə evakuasiya yolları, evakuasiya və qəza keçidləri, yanğının avtomatik söndürülməsi, yanğın siqnalı, yanğın zamanı insanların məlumatlandırılması, evakuasiyanın idarə olunması və tüstüyə qarşı mühafizə sistemi üçün təyin olunmuş yanğın təhlükəsizliyi tələblərinin pozulması üçün cərimə 200 lari əvəzinə 1000-dən 5000 lariyə qədər nəzərdə tutulub.

Qeyd olunan hərəkəti təkrar törədən şəxs 300 lari əvəzinə 2000-dən 7000 lariyə qədər cərimə ödəməli olacaq.

Tikiliyə gedən yolda və tikilidən çıxışlar üçün




təyin edilmiş yanğın təhlükəsizliyi tələblərinin pozulmasına dair cərimə 100 lari əvəzinə 1000 lariyə kimi artacaq. Özəl yanğın müdafiəsi bölməsi tərəfindən yanğının söndürülməsi qaydası və şərtləri haqqında texniki reqlamentin tələblərinin pozulması və ya yerinə yetirilməməsi 1000 lari əvəzinə 5000-dən 10000 lariyə qədər cərimələnəcək.

Mülki təhlükəsizlik kateqoriyasına aid olan obyektdə fövqəladə halların aradan qaldırılması və onlara reaksiya göstərilməsi tələblərinin pozulması və ya yerinə yetirilməməsi 200 laridən 1000 lariyə qədər cərimələnəcək.

Fövqəladə halların nəticəsinin aradan qaldırılması üçün nəzərdə tutulmuş fövqəladə hallara reaksiya göstərilməsi üçün qüvvə və vasitələrin hazır olmasının təmin edilməsi üçün lazım olan tələblərin yerinə yetirilməməsi və ya idarə planları ilə nəzərdə tutulmuş fövqəladə hallara reaksiya göstərilməsi üçün qüvvə və vasitələrin fövqəladə hallar zonasına gecikərək göndərilməsinə dair cərimə 500-dən 1000 lariyə qədər artacaq.

Fövqəladə hallar zamanı əhalinin, maddi və mədəni dəyərlərin mühafizəsini təmin etmək üçün lazımi tələblərin yerinə yetirilməməsinə dair cərimə 600 laridən 3000 lariyə qədər artır.

Belə ki, Gürcüstanın İnzibati Xətalar Məcəlləsinə yeni sanksiyalar daxil olur. Konkret olaraq su təchizatı lisenziyası sahibi və ya ekspluatasiyanı həyata keçirən təşkilat tərəfindən yanğın hidrantlarının qorunması üçün təyin olunmuş qaydaların pozulması və ya yerinə yetirilməməsi 3000-dən 5000 lariyə qədər cəriməni nəzərdə tutur. Həmçinin Gürcüstan qanunvericiliyi ilə təyin edilmiş qaydaya əsasən suda insan həyatının qorunması və onun təhlükəsizliyi qaydalarının pozulması və yerinə yetirilməməsi 1000 laridən 3000 lariyə qədər cərimələnəcək.

Gürcüstanın baş nazirinin tabeçiliyində olan xüsusi təyinatlı dövlət müəssisələrinin fövqəladə halların idarəsi üzrə xidmətin səlahiyyətli şəxslərinə sanksiya yazan zaman mane omaq 1000 lari cərimələnəcək.

Qeyd edək ki, əgər şəxsin mülkündə olan hüquqi şəxs hesab edilməyən bir neçə obyektdə qayda pozulub, həmin maddənin müfaviq hissələri ilə nəzərdə tutulmuş tələblər pozulubsa cərimə hər obyekt üçün ayrı təyin olunacaq.

Nini KETELAURİ

## SOCAR QARDABANİDƏ 9 UŞAQ BAĞÇASINA TƏBİİ QAZ ÇƏKƏCƏK

Qardabani bələdiyyəsində uşaq bağçalarının təmiri aktiv mərhələdə davam edir. Yeni tədris ilində uşaqların ixtiyarına yeni təmir olunmuş binalar və otaqlar veriləcək. Bu barədə Parlamentin deputatı Savalan Mirzəyev məlumat verib. Onun sözlərinə görə, Lemşvaniera ,Candar, Mzianeti, Nəzərli, Kalinin, Qaracalar və digər kəndlərdə uşaq bağçaları təbii qazla təmin edilməyib.



Savalan Mirzəyev SOCAR şirkətinin Gürcüstan nümayəndəliyinin rəhbəri Mahir Məmmədova adı çəkilən uşaq bağçalarının şirkətin öz hesabına uşaqlara hədiyyə olaraq təbii qazla təchiz etmək üçün rəsmi məktubla müraciət edib.

Mahir Məmmədov təklifi qəbul edib və şirkətin qısa müddət ərzində 9 uşaq bağçasına təbii qaz çəkəcəyini, daxili şəbəkələr quracağını və qazın veriləcəyini bildirib.

## KVEMO KARTLİ QUBERNATORU QARDABANİDƏKİ UŞAQ BAĞÇALARINDA GEDƏN TƏMİR-BƏRPA İŞLƏRİ İLƏ TANIŞ OLUB

Kvemo Kartlinin dövlət müvəkkili-qubernator Şota Rexviaşvili, Qardabani bələdiyyəsinin sakrebulo sədri Tariel Canxoteli və Qardabani meri Ramaz Budağaşvili uşaq bağçalarında gedən təmir-bərpa işlərini nəzərdən keçiriblər.



Qubernator bələdiyyənin rəhbər şəxsləri ilə birgə 11 uşaq bağçasına baş çəkərək tikinti işlərini dəyərləndirib və bağça əməkdaşları ilə söhbət edib.

Sakrebulo sədri Tariel Canxotelinin bəyanatına görə, cari ildə Qardabani bələdiyyəsində 23 uşaq bağçası təmir olunacaq. Bərpa işləri başa çatdıqdan sonra isə yenilənmiş infrastrukturdan təqribən 3100 uşaq yararlanacaq.

## BOLNİSİ BƏLƏDİYYƏSİNDƏ ŞAGİRDLƏR YENİ TƏDRİS İLİNƏ YENİLƏNMİŞ MƏKTƏBLƏRDƏ BAŞLAYACAQLAR



Bonisi ictimai məktəblərinin infrastruktur məsələləri haqqında Bolnisinin majoritar deputatı Qoqi Meşveliani Tədris Resurs Mərkəzinin rəhbəri İamze Svanidze ilə söhbət aparıb.

Məlumata əsasən, cari ildə Talaveri kəndinin 1 nömrəli və Bolnisi şəhərinin 5 nömrəli ictimai məktəbinin binasında tam bərpa işləri aparılıb, Poladauri kəndində isə ibtidai məktəbin müasir standartlarla təchiz olunmuş yeni binası tikilib.

Bələdiyyədə cəmi 32 ictimai və 2 özəl məktəb var. Cari ildə hər tədris müəssisəsində kiçik infrastruktur işləri həyata keçirilib ki, şagirdlər daha yaxşı mühitdə təhsil ala bilsinlər.

## BOLNİSİ MƏKTƏBLƏRİ KABELSİZ İNTERNETLƏ TƏCHİZ OLUNACAQ

Bolnisi bələdiyyəsinin məktəbləri kabelsiz internetlə təmin olunacaq. Qeyd olunan məsələni hökumət iclasında Gürcüstanın təhsil, elm, mədəniyyət və idman naziri Mixeil Batiaşvili hökumət üvlərinə təqdim edib. Nazirin qeydinə görə, tədris prosesinin müasir şəkildə idarə edilməsi üçün, xüsusən region məktəblərində kabelsiz internetə geniş əhəmiyyət verilir. Müvafiq olaraq Gürcüstan hökumətinin qərarı ilə nazirliyin idarəçilik sahəsində fəaliyyətdə olan "Tədris Elmi İnfrastruktur Agentliyinə" ictimai məktəblərə kabelsiz internet infrastrukturu almaq səlahiyyəti verilib.

Nazirin sözlərinə görə, ilkin mərhələdə agentlik tərəfindən kabelsiz internetlə 69 ictimai məktəb təmin ediləcək. Əksəriyyəti isə Bolnisi, Axaltsixe, Samtredia, Poti, Martvili, Saçxere, Tsaqeri, Tsğaltubo, Tianeti, Adigeni, Axmeta, Kazbeki, Lançxuti, Çoxatauri, Xaraqauli, Ozurgeti məktəbləridir. Aparılmış bazar tədqiqatının nəticələrinə əsasən, lazım olan maddi vəsaitin təxmini dəyəri 1 740 000 larini təşkil edir.

## YANVAR AYINDAN MÜƏSSİSƏLƏR İDENTİFİKASİYADAN KEÇMƏMİŞ HEYVANLARDAN ALINAN SÜDÜ QƏBUL ETMƏYƏCƏKLƏR

2019-cu ilin 1 yanvar tarixindən süd istehsalı müəssisələri heyvanları Milli Ərzaq Mühafizəsi Agentliyi tərəfindən identifikasiya olmamış fermerlərdən süd almayacaqlar. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) bəyanatına əsasən, proqramın məqsədi heyvan və heyvan müəssisələrinin məhsulunun tədqiqatıdır.

Heyvanların yoxlayışı proqramı iri və xırda buynuzlu mal-qaranın qulaq nişanı ilə identifikasiya edilməsini və Milli Ərzaq Agentliyinin elektron bazasında heyvanların qeydiyyatını nəzərdə tutur.

Təşkilatın məlumatına görə, identifikasiya-qeydiyyat və vaksinləmə proqramı çərçivəsində Gürcüstandakı bütün fermerlərin xırda və iri buynuzlu mal-qarasını heyvanların sayından asılı olmayaraq dövlət baytarları ildə bir neçə dəfə pulsuz vaksinləmə edir (qarayara, bruselyoz, quduzluq və.s) və heyvanları fərdi nömrə ilə işarələyirlər.



Vaksinləmə və identifikasiya proqramı üçün dövlər hər il 4,5 milyon lari xərcləyir.

## GÜRCÜSTAN KƏND TƏSƏRRÜFATI MƏHSULLARI ÜÇÜN SU İSTEHSAL EDİR

Artıq bir neçə aydır ki, gürcü bazarında "Eleksir" suyu satışa çıxarılıb. İstehsalçı şirkət "İno-Labi"nin direktoru Zurab Mcedlişvili bildirib ki, innovasiya məhsulu elektroaktivləşdirilmiş su əsasında yaradılıb. Suyun yüksək oksidləşmə-bərpa potensialı olduğuna görə zərərli mikroorqanizmlərlə daha effektli mübarizə aparır və onları məhv edir, həmçinin inkişafı və böyüməni sürətləndirir. Ən əsası da, su Gürcüstanda hazırlanır.



Şirkətin məlumatına görə, indiki mərhələdə kənd təsərrüfatı üçün nəzərdə tutulmuş doqquz məhsul istehsal edilir. Həmçinin tənək, iribuynuzlu mal-qara, balıq, meyvə ağacları, dənli bitkilər üçün eleksir hazırlanır.

Şirkətin direktorunun izah etdiyinə görə, yaxın gələcəkdə beş yeni məhsulun istehsalı planlaşdırılır. Onlardan dezinfeksiya üçün və həşəratlara qarşı istifadə etmək mümkün olacaq.

""Eleksir" mikroba qarşı güclü vasitədir və müxtəlif göbələk, bakteriya və ya virus xəstəliklərinin yaranmasına və inkişafına mane olur. Bitkilərdə mühafizə səthi yaradır. Ümumilikdə istifadəçi ekoloji baxımdan təmiz, natural bioloji məhsul alır", - deyə Zurab Mcedlişvili bildirib.

Onun sözlərinə görə, "Eleksir"in istehsal texnologiyasını şirkət avstriyalı tərəfdaşlarından öyrənib. Belə ki, məhsula "InfoXgen" sertifikatı verilib. Bu, Avropada bio məhsulların istehsalı sahəsində verilən ən vacib lisenziyadır.

## PİROTEXNİKANIN YETKİNLİK YAŞINA ÇATMAMIŞ ŞƏXSLƏRƏ SATILMASI QADAĞAN OLUNA VƏ İNZİBATİ QAYDA İLƏ CƏRİMƏLƏNƏ BİLƏR




Pirotexnikanın yetkinlik yaşına çatmamış şəxslərə satılması qadağan oluna və inzibati qayda ilə cərimələnə bilər.

İnzibati Xətalar Məcəlləsində dəyişikliklər layihəsi Parlamentin Təhsil və Elm Komitəsi Aparatında hazırlanıb və komitənin sədri Mariam Caşi müzakirə üçün yaxın zamanlarda qanunlayihəni təqdim edəcək.

Layihəyə əsasən, pirotexnika məhsullarının yetkinlik yaşına çatmamış şəxslərə satılması fiziki şəxsin 100 lari, hüquqi şəxsin 200 lari dəyərində cərimələnməsinə səbəb olacaq. Qeyd olunan hərəkətin bir il ərzində təkrar olunması zamanı fiziki şəxs 200 lari, hüquqi şəxs 400 lari cərimələnəcək.

Layihənin müəllifi izah edir ki, layihənin hazırlanma səbəbi pirotexniki qurğuların yetkinlik yaşına çatmamış şəxslərə əlçatan olmasıdır. Buna görə də onların sağlamlığı təhlükə altına düşür.

"Pirotexnika qurğularının yetkinlik yaşına çatmamış şəxslərə əlçatan olması təhlükə daşıyır. Bu, bayram günlərində dəfələrlə təsdiqlənib. Pirotexnikanın partlaması və ya alovlanması nəticəsində yetkinlik yaşına çatmamış şəxslər tərəfindən yüngül və ağır bədən xəsarətləri qeydə alınır. 2018-ci ilin 2 yanvarında Tbilisinin tibb müəssisələrində müxtəlif zədələrlə 44 nəfər xəstəxanaya müraciət etmişdir, onun 24 nəfəri yetkinlik yaşına çatmamış şəxslər olub. 2017-ci ildə Yeni ilin ilk günlərində pirotexnikadan istifadə nəticəsində 54 nəfər zərər çəkib, onlardan 2 nəfərin barmaqları amputasiya edilib", – layihənin izahat kartında qeyd olunur.

yeni_yol@mail.ru | İCTİMAİ QƏZET | იენი იოლი საზოგადოებრივი გაზეთი | qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur

HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

Yeni YOL

15 SENTYABR 2018-Cİ İL №014 (73)

## 11 AY ƏRZİNDƏ SƏS-KÜYƏ GÖRƏ 77 700 LARİ DƏYƏRİNDƏ CƏRİMƏ YAZILIB



"Səs-küy haqqında" qanunun pozulması ilə bağlı 11 ay ərzində dövlət büdcəsinə cərimə şəklində təqribən 77 700 lari daxil olub.

Həmin göstəricilərə əsasən, səs-küylə bağlı qanunun pozuntularına dair 133 fiziki və 98 hüquqi şəxsə sanskiya təyin olunub.

Qeyd edək ki, səs-küylə bağlı qayda pozuntularına reaksiya göstərmək 2018-ci ilin 1 iyulundan bələdiyyənin səlahiyyətindədir.

Xatırladaq ki, səs-küylə bağlı qanuna tənzimləmələr 2017-ci ilin 15 avqustunda daxil edilib. Qanuna əsasən, saat 23:00-dan səhər saat 8:00-a qədər məhdudiyyətlər təyin edilib.

Səs-küyün yolverilən normadan artıq olduğu zaman fiziki və hüquqi şəxs inzibati məsuliyyətə cəlb olunur. İlk halda xəbərdarlıq edilir, bir il ərzində təkrar olunarsa 150 larilik cərimə, hüquqi şəxs olan halda isə 500 larilik cərimə təyin edilir.

## TBİLİSİDƏ "BERNİNİ MƏKTƏBİ VƏ ROMA BAROKKOSU" SƏRGİSİ KEÇİRİLİR




Leonardo da Vinçi, Mikelancelo, Rafael, Botiçelli, Tisian və başqa böyük italyan rəssamlarının əl işlərindən sonra Gürcüstanın Milli Muzeyi "Bernini məktəbi və Roma barokkosu" sərgisinə ev sahibliyi edir.

Sərginin açılışı sentyabrın 11-i D. Şevardnadze adına Milli Qalereyada baş tutub. Sərgini Gürcüstan təhsil, elm, mədəniyyət və idman naziri Mixeil Batiaşvili, İtaliyanın Gürcüstandakı səfiri Antonio Enriko Bartoli, Gürcüstanın Milli Muzeyinin direktoru David Lortkipanidze və Milli Turizm Administrasiyasının rəhbəri Giorgi Çoqovadze çıxış edərək açıb.

XVII əsr Romasında italyan barokkosunun ən görkəmli nümayəndələrindən biri olmuş Bernini və XVII əsrin başqa italyan ustalarının Roma yaxınlığında yerləşən "Roman Baroque" muzeyində qorunan şedevrlərinin sərgisi sentyabrın 25-nə qədər davam edəcək.

Sərgidə 60-a yaxın iş, həmçinin portretlər, avtoportretlər, peyzaj, qrafika, müxtəlif freska üçün hazırlanmış eskizlər, gümüş medallar və divar dekorları təqdim olunub.

Sərgi ilə yanaşı müxtəlif yaş kateqoriyaları üçün maarifləndirici proqramlar və ictimai mühazirələr keçirilir.

Layihə İtaliya səfirliyi və Gürcüstan Milli Muzeyinin sıx əməkdaşlığının nəticəsidir və Gürcüstan hökumətinin "Chek in Georgia" layihəsi çərçivəsində həyata keçirilir.

Təşəbbüsü Gürcüstanın Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyi, İqtisadiyyat və Davamlı İnkişaf Nazirliyi, Milli Turizm Administrasiyası, İtaliyanın Xarici İşlər Nazirliyi və Beynəlxalq Əməkdaşlıq Nazirliyi, "VivereALL'Italiana" proqramı dəstəkləyir.

## "SERVİSAQRO"NUN DİREKTORU: BİR HƏFTƏ ƏRZİNDƏ 1 KQ BUĞDANIN QİYMƏTİ 63 TETRİDƏN 68 TETRİYƏ QƏDƏR ARTIB



Maliyyə nazirinin sərəncamı ilə nəqliyyatla buğdanın ölkəyə daxil olub çıxarılması məhdudlaşdırılır.

"Servisaqro"nun direktoru Beso Cikia bildirib ki, yalnız nazirin sərəncamından bir həftə sonra 1 kq buğdanın qiyməti 63 tetridən 68 tetriyə qədər artıb.

"Mən dəmir yolu ilə də buğda gətirirəm. İndi mənim vaqonum yoldadır və 1 tonu 240 dollara satmalıyam. Traylerlə qəbul ediləni isə 220 dollara almışam", - bildirir B. Cikia.

İllərə əsasən buğdanın qiymətinin dinamikasına gəldikdə isə, Poti, Batumi limanlarında buğdanın ən yüksək qiyməti 2012-ci ildə 310,60 dollar olub.

Bundan sonra buğdanın qiyməti hər il azalırdı. 2016-cı ildən isə yenidən artım müşahidə olunmağa başlayır. 2016-cı ildə portlarda buğdanın qiyməti 187,27 dollar, 2017-ci ildə 202,25 dollar, 2018-ci ilin göstəricilərinə görə isə 217,06 dollar idi.

## AVROPOLDA GÜRCÜSTANIN OFİSİ AÇILIB



Gürcüstanın baş naziri Mamuka Baxtadzenin sərəncamı ilə Avropolda (Avropa Polis Agentliyi) Gürcüstanın ofisi açılıb. Bu haqda Mamuka Baxtadze brifinqdə çıxışı zamanı bildirib:

"Avropolda Gürcüstanın ofisi açıldı. Bu müvafiq orqanlar arasında daha effektli ünsiyyətin olması üçün çox əhəmiyyətli addımdır. Daxili İşlər Nazirliyi bu istiqamətdə çox fəal çalışır və düşünürəm ki, qeyd olunan ofisin Avropolda açılması bizim tələsdiyimiz o standartlara nail olmağımıza dəstək olacaq".

Qeyd edək ki, Gürcüstan Daxili İşlər Nazirliyi 2017-ci ildə Avropol ilə imzalanmış razılaşmaya əsasən Avropola müttəfiq zabitini göndərib. Avropolda Gürcüstanın ilk müttəfiq zabiti artıq səlahiyyətini yerinə yetriməyə başlayıb.

## BİZNES SEKTORDA İŞLƏ TƏMİN OLUNANLARIN SAYI 656,5 MİN NƏFƏRİ TƏŞKİL EDİB



2018-ci ilin II kvartalında biznes sektorda işlə təmin olunanların orta sayı 656,5 min nəfəri təşkil edib. Bu, ötən ilin analoji dövrünə olan göstəricilərdən 4 faiz artıqdır.

Statistika üzrə Milli Xidmətin məlumatına görə, işlə təmin olunanların ümumi sayından 41 faizi qadın, 59 faizi kişidir.

Belə ki, işlə təmin olunanların ümumi sayının 36,8 faizi böyük, 22,0 faizi orta, qalan 41,2 faizi isə kiçik biznesin payına düşür.

Statistika Xidmətinin məlumatına əsasən, biznes sektorda işə götürülənlərin ümumi say 621,4 min nəfəri təşkil edib (keçən ilin müvafiq dövrü ilə müqayisədə - 3,9 faiz çoxdur). Müəssisələrin işçilərə ümumi xərci - 2 159,8 milyon lari müəyyən edilib (keçən ilin analoji dövrü ilə müqayisədə 8,2 faiz çoxdur).

## GÜRCÜSTAN "OSKAR"A ZAZA XALVAŞİNİN "NAMME" FİLMİNİ TƏQDİM EDƏCƏK




Gürcüstan Kino Mərkəzində yaradılmış fövqəladə komissiya qərar verib ki, "Oskar"a xarici dilli film nominasiyasında Gürcüstanın namizəd filmi Zaza Xalvaşinin "Namme" filmi olacaq. Qərar gizli səsvermə əsasında qəbul edilib.

"Namme" Milli Kino Mərkəzinin dəstəyi ilə yaradılmış filmdir və Gürcüstan-Litva-Fransa birgə məhsuludur.

"Namme" Gürcüstan dağlarında, kiçik, ənənəvi kənddə yaşayan qoca ata və onun qızı Namme və üç oğlu haqqındadır. Qardaşlardan biri müəllim, ikincisi molla və üçüncüsü isə keşişdir. Kənddə müsəlmanlar və provoslavlar birgə yaşayırlar. Kəndin bir tərəfində kilsə, digər tərəfində isə məscid var.

Filmin premyerası bu il Tokio Beynəlxalq Film Festivalının əsas müsabiqə proqramında baş tutub.

Qeyd edək ki, Amerika Kino Akademiyasının 91-ci mükafatlandırma mərasimi 2019-cu ilin 24 fevral tarixində baş tutacaq.

Təsisçi:
"Gürcüstan Gənclərinə Yardım Və Maarifləndirmə Təşkilatı"

Redaktor: Azər Musaoğlu
Yayım Direktoru: Hacı Bəkiroğlu
Qrafik dizayn: Elsevər Əhmədov

ÜNVAN: Qardabani şəh. Kolxoz küç, 4
TEL: (+995) 555 96 18 68
599 54 12 92
EMAİL: yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet həlelik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.